**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT İMTAHAN MƏRKƏZİ**

Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün **onlayn şəkildə** kompüter vasitəsilə keçirilən test imtahanı mərhələsində iştirak edən namizədin

## YADDAŞ KİTABÇASI

Hörmətli namizəd! Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) sizin Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert olmaq arzunuzu bəyənir və sizə bu yolda uğurlar arzulayır. Məqsədimiz biliklərinizi nümayiş etdirmək üçün sizə bərabər şərait yaratmaq, imtahanlarda şəffaflığı, aşkarlığı və obyektivliyi təmin etməkdir. İmtahanda uğur qazanmaq üçün siz yüksək bilik nümayiş etdirməklə yanaşı bu "Yaddaş kitabçası"nda göstərilənləri mütləq nəzərə almalı və imtahanın keçirilmə qaydalarına əməl etməlisiniz.

**ONLAYN İMTAHANIN KEÇİRİLMƏSİ ÜÇÜN TƏLƏBLƏR:**

1. İmtahanda iştirak etmək üçün namizəd internetə qoşulmuş müasir tələblərə uyğun fərdi kompüter (PC) və ya notbukdan istifadə etməlidir (mobil qurğu və ya planşetdən istifadə etmək olmaz);
2. Kompüterdə Windows əməliyyat sisteminin 10, 8 və ya 7 versiyalarından biri olmalıdır. Namizəd həmin versiya əməliyyat sistemi ilə işləmək vərdişinə malik olmalıdır;
3. Nəzarətçi ilə əlaqə yaratmaq üçün kompüterin daxili və ya xarici mikrofonu və səsgücləndiricisi (qulaqcıqların istifadəsi qadağandır), nəzarətçiyə otağı və masanın üzərini görə bilmə imkanı verən kamerası (vebkamera da qoşula bilər) olmalıdır;
4. İnternet dayanıqlı və sürətli olmalıdır;
5. İmtahan xüsusi yaradılmış proqram təminatı vasitəsilə proktorinq (proktorinq – distant video müşahidə və nəzarət qaydasında imtahanın təşkili formasıdır. Proktorinq imtahanı prosesi haqqında buradan məlumat əldə edə bilərsiniz.) qaydasında aparılır;
6. Namizəd ProctorDİM propram təminatını öz kompüterinə yükləməlidir və imtahandan əvvəl sistemə qoşulub-qoşulmadığını yoxlamalıdır (proqramın yüklənmə linki DİM-in saytında elan ediləcəkdir);
7. İmtahana otaq və ya ofis şəraitində qoşulmaq məsləhət görülür. İctimai yerlərdə (kafe, park və s.) imtahanda iştirak qadağandır;
8. Namizəd imtahan verdiyi otaqda tək olmalı, otaq sakit olmalı, kənar şəxslər otağa daxil olmamalıdırlar;
9. Namizəd kompüter qarşısında adi stulda əyləşməlidir (kreslo və ya çarpayıda oturmamalıdır);
10. İmtahan zamanı monitor, maus və klaviatura masanın üstündə olmalıdır. Masanın üstündə kənar əşyalar olmamalıdır. Mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vasitələrdən istifadə **qadağandır**;
11. Namizəd imtahan prosesinin izləndiyini və videoçəkiliş aparıldığını nəzərə alaraq imtahana uyğun tərzdə geyinməlidir;
12. Namizədin qulaqları aydın şəkildə görünməlidir (saç, baş geyimi və s. qulaqları örtməməlidir). Eləcə də, namizədin üzərində sırğa, saat, saç bantı, qalstuk sancağı və gün eynəyi olmamalıdır;
13. İmtahan müddətində yemək yeməyə icazə verilmir;
14. İmtahan başlandıqdan sonra hər hansı bir səbəbə görə, kompüterin (kameranın) qarşısından aralanmaq, otaqda gəzişmək olmaz.

**DİQQƏT!** İmtahan prosesinə nəzarət həm məsafədən canlı şəkildə – nəzarətçi tərəfindən, həm də süni intellekt texnologiyası ilə həyata keçirilir. Nəzarətçi imtahan başlamamışdan əvvəl imtahan otağının nəzərdən keçirilməsi və namizədin şəxsiyyətinin müəyyənləşdirilməsi də daxil olmaqla mütəmadi nəzarəti həyata

**BAKI-2021**

keçirir, şübhədoğuran hal olduqda müdaxilə edir. Süni intellekt texnologiyası isə (üztanıma və bütöv imtahan prosesinin video çəkilişi) istənilən qayda pozuntusunu qeydə alır.

15. Namizəd nəzarətçinin göstərişlərinə əməl etməli, nəzarətçinin iradı olarsa, onu nəzərə almalıdır.

**İMTAHANDA İŞTİRAK EDƏN NAMİZƏD AŞAĞIDAKILARI NƏZƏRƏ ALMALIDIR:**

1. İmtahan günü namizəd kompüterin, mikrofonun, kameranın işlək olmasını, otağın, internet bağlantısının və s. vəziyyətinin imtahanın keçirilməsi tələblərinə uyğun olub-olmadığını bir daha dəqiqləşdirməlidir;

2. Namizəd imtahanın təyin olunduğu vaxta 15 dəqiqə qalmış ProctorDİM propramını işə salmalı, ekrandakı göstərişləri diqqətlə izləyərək yoxlanışdan keçməlidir, yəni şəxsiyyət vəsiqəsinin FİN kodu və şəkli vasitəsilə namizədin şəxsiyyəti müəyyən olunmalıdır (check in), namizəd identifikasiya mərhələsini keçməlidir. Bu zaman hər hansı problem yaranarsa, bu barədə prosesə məsafədən (distant) nəzarət edən şəxslə əlaqə yaradaraq məlumat verməlidir;

**DİQQƏT! Namizədin sənədindəki şəkli ilə eyniliyi imtahan prosesi boyu dəfələrlə süni intellekt texnologiyasından (üz tanıma və bütöv imtahan prosesinin video çəkilişi) istifadə olunmaqla yoxlanılır.**

3. İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olduqdan sonra nəzarətçinin göstərişi ilə imtahan başlanır. İmtahanın davametmə müddəti 3 saatdır.

4. İmtahanda (I mərhələ) yoxlanılacaq bilik sahələri və hər sahə üzrə test tapşırıqlarının sayı və ballar haqqında məlumatlar aşağıdakı cədvəldə verilmişdir:

| İmtahanın məzmunu | Test tapşırıqlarının sayı | | | Toplanılması mümkün olan maksimal bal |
|---|---|---|---|---|
| | Açıq tipli | Qapalı tipli | Ümumi | |
| Ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürün) yoxlanılmasına aid suallar | 6 | 24 | 30 | 36* |
| sığorta və kənd təsərrüfatı sahəsi üzrə qanunvericiliyə aid suallar | 4 | 16 | 20 | 24 |
| İxtisas üzrə suallar | 10 | 40 | 50 | 60 |
| ***CƏMİ:*** | 20 | 80 | 100 | 120 |

* Düzgün cavablandırılmış hər bir qapalı tipli test tapşırığı 1 balla, açıq tipli test tapşırığı 2 balla, yanlış cavablandırılmış və ya cavablandırılmamış test tapşırıqları isə 0 balla qiymətləndirilir.

5. Test tapşırıqlarını istənilən ardıcıllıqla cavablandırmaq, imtahanın davam etdiyi müddətdə cavablara hər hansı dəyişiklik etmək mümkündür;
6. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda namizədin imtahan nəticələri, suallara verdiyi düzgün və səhv cavablar ekranda əks olunur;
7. İmtahandan sonra keçiriləcək ekspertiza nəticəsində hər hansı bir test tapşırığında elmi-metodiki səhv aşkarlanarsa, həmin tapşırıq bütün namizədlər üçün düzgün cavablandırılmış sayılır;
8. İmtahan nəticələri haqqında məlumat www.dim.gov.az saytında yerləşdirilir;
9. Namizəd imtahanın nəticələri ilə razı olmadıqda, nəticələr elan edildiyi gündən etibarən 5 iş günü müddətində DİM tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edə bilər. Müraciətə baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir. Namizəd bu qərardan məhkəməyə şikayət verə bilər.

**BAKI-2021**

**DİQQƏT!** İmtahan zamanı namizəd qaydaları pozarsa, müvafiq xəbərdarlıq edilir və ya imtahandan kənarlaşdırılır və nəticəsi ləğv edilir.

Namizəd imtahanda iştirak edərkən, müsabiqənin keçirilməsi qaydalarına, yaddaş kitabçasında əks olunan tələblərə və namizədlər barədə müəyyən edilmiş qadağalara əməl etməlidir. Namizədin bu tələblərə və qadağalara əməl etməməsi halları (köçürmə, habelə, saxta sənəd təqdim etmək, başqasının yerinə imtahan vermək və s. hərəkətlər) Mərkəz tərəfindən aşkar edildikdə, onun imtahan nəticələrinin ləğv olunması barədə qərar qəbul edilir. Bu qərardan məhkəməyə şikayət verilə bilər.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***

**BAKI-2021**